

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 107 (21.768)

7 iyun 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Dövlət İmtahan Mərkəzinin bazasında olan nəzarətçi-müəllimlərin təlimatlandırılmasına dair interaktiv konfrans keçirilmişdir

Konfransda Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin müdiri Sabir Məmmədov “2016-2017-ci tədris ilində regional bölmənin gördüyü işlər və qarşıda duran vəzifələr” mövzusunda çıxış edərək bildirmişdir ki, cari tədris ili ərzində nəzarətçilər bazası üzərində təkmilləşdirmə işləri həyata keçirilmişdir. Bazaya daxil olan 645 nəzarətçi-müəllim üçün fevral ayında muxtar respublikanın bütün rayonlarında seminarlar təşkil olunmuş və onların Dövlət İmtahan Mərkəzinin keçirdiyi sınaq, buraxılış və qəbul imtahanlarında iştirakı təmin edilmiş, heç bir qayda pozuntusu baş verməmişdir.

İmtahanların keçirilməsi üçün 7-si Naxçıvan şəhərində, 10-u isə muxtar respublikanın rayon mərkəzlərində olmaqla, 17 imtahan binasında yoxlama işləri aparılmış, binaların sxemləri dəqiqləşdirilmişdir. Dövlət İmtahan Mərkəzinin 2017-ci ildə ali məktəblərə hazırlaşan abituriyentlər üçün keçirdiyi 2 sınaq imtahanı Naxçıvan Muxtar Respublikasında aparılmışdır.

Qeyd olunmuşdur ki, ali təhsil müəssisələrinə birinci qəbul imtahanı II və III qruplar üzrə aprel ayının 30-da, I və IV qruplar üzrə may ayının 7-də keçirilmişdir. Ali təhsil müəssisələrinə ikinci qəbul imtahanı isə II və III qruplar üzrə iyul ayının 14-də, I və IV qruplar üzrə iyul ayının 22-də keçiriləcək.



Tam orta təhsillərini cari ildə başa vuran abituriyentlər üçün V qrup üzrə qəbul imtahanı keçirilməyəcək. Onlar ixtisasların seçimi müsabiqəsində buraxılış imtahanında əldə etdikləri nəticələr əsasında iştirak edəcəklər. Digər abituriyentlər üçün qəbul imtahanının iyul ayının 5-də keçirilməsi nəzərdə tutulur.

Vurğulanmışdır ki, bu ilin tədbirlər planına uyğun olaraq regional bölmənin qarşısında sınaq, buraxılış və qəbul imtahanları zamanı qarşıya çıxan problemlərin həll edilməsi kimi bir sıra mühüm vəzifələr durur. Konfransın keçirilməsində məqsəd də qarşıdan gələn qəbul imtahanlarının şəffaf və obyektiv keçirilməsini təmin etməkdir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək demişdir ki, regional bölmə və Təhsil Nazirliyinin birgə əməkdaşlığı ilə ilk dəfə keçirilən bu konfrans vasitəsilə 16 mərkəzlə onlayn əlaqə yaradılmış və internet üzərindən 645 nəzarətçi-müəllim eyni anda konfransda iştirak edə bilmişdir.

Məmməd Qəribov onu da vurğulamışdır ki, 2016-cı il “Abituriyent” jurnalının 12-ci sayında imtahan nəticələrinin statistik göstəricilərinə əsasən muxtar respublikamız ilk beşlikdə yer alıb.

Konfrans bölmələrlə qarşılıqlı diskussiya şəklində davam etmiş, verilən suallar cavablandırılmışdır.

✍ **Fatma BABAYEVA**

## Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində kompleks quruculuq işlərinə başlanılıb



***Son illər muxtar respublikamızda reallaşdırılan genişmiqyaslı quruculuq tədbirləri nəticəsində həyata vəsiqə alan, müasir memarlıq üslubu ilə gözoxşayan, bir-birindən yaraşıqlı, müxtəlif təyinatlı binalar yerləşdiyi əraziyə yeni görkəm bəxş etməklə bərabər, ayrı-ayrı yaşayış məntəqələrində əhalinin rahatlığına xidmət edir. Tikilən və ya yenidən qurulan müasir məktəb binaları yüksəkkeyfiyyətli tədris üçün əlverişli şərait yaradır. Bu istiqamətdə işlər davam etdirilir, quruculuq ərməğanlarının coğrafiyası ildən-ilə genişləndirilir.***

İlkin şəhərsalma mədəniyyətinin izlərini özündə yaşadan qədim Naxçıvan şəhəri bu gün yeni inkişaf dövrünü yaşayır. Son illər şəhərin prospekt, küçə və məhəllələri abadlaşdırılıb, park və xiyabanlar salınıb, yeni inzibati və yaşayış binaları tikilib, sosial obyektlər istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”ın icrası bu işlərin davamlı olmasına imkan verib, Naxçıvan şəhərində tikinti-quruculuq, yaşıllaşdırma və abadlıq işlərinin həcmi artıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində bu gün muxtar respublikada tikinti-quruculuq işlərinin geniş vüsət aldığı ünvanlardan biri də Naxçıvan şəhərinin Qaraxanbəyli kəndidir. Qeyd edək ki, Qaraxanbəyli kəndi Naxçıvan şəhərinin inzibati ərazi vahidinə daxil olan yaşayış məntəqəsidir. 2009-cu ilə qədər Babək rayonunun tərkibində olmuş bu kənd “Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri və Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, Tumbul, Hacıniyyət, Bulqan və Qaraçuq kəndləri ilə birlikdə Naxçıvan şəhər inzibati ərazi vahidinin hüdudlarına daxil edilib. Bu ilin mart ayından başlayaraq kənddə müasirtipli layihə əsasında üçmərtəbəli məktəb binası, kənd və xidmət mərkəzləri inşa edilir.

414 yerlik məktəb binası 3 mərtəbədən ibarət olacaq. Hazırda məktəb binasının ikinci mərtəbəsində qəlib-beton işləri həyata keçirilir. Burada sinif otaqları, müxtəlif laboratoriyalar, elektron lövhəli dərs otaqları, kompüter sinifləri, zəngin kitabxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Şagirdlər fiziki hazırlıq dərslərinin keçilməsi üçün yaradılan və müasir qurğularla təchiz olunmuş idman zalından istifadə etmək imkanı qazanacaqlar.

Məktəbdə şagirdlərin dərslik, bədii və elmi ədəbiyyatlarla təminatına, eləcə də onların mütaliəsinə xüsusi diqqət yetiriləcək, 17 mindən artıq kitab fondu olan kitabxana yaradılacaq. Kimya, biologiya və fizika laboratoriyalarında sınaq-təcrübə avadanlıqları quraşdırılacaq. Elektron dərsliklərlə təminat isə mövzu üzrə müxtəlif mənbələrdən, o cümlədən internet resurslarından istifadə olunmasına və dərslərin daha əhatəli öyrədilməsinə imkan verəcək. Burada yaradılacaq sürətli internetə çıxış imkanı kompüterlərdən və elektron lövhələrdən səmərəli istifadəyə, elektron tədris mübadiləsinə və beləliklə, distant təhsilin inkişafına geniş imkanlar açacaq. Təhsil müəssisəsinin informasiya texnologiyaları ilə təminatı pedaqoji kollektiv və şagirdlər, eləcə də digər ümumtəhsil məktəbləri ilə informasiya mübadiləsi aparmağa şərait yaradacaqdır. Binanın həyətində də abadlıq işləri aparılacaq, yaşıllıq sahələri yaradılacaq, işıqlandırma sistemləri qurulacaqdır.

İnşaat işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün obyektə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin təcrübəli inşaatçıları və müasir maşın-mexanizmləri cəlb olunub.

Obyektin iş icraçısı Əliağa Piriyevin bildirdiyinə görə, kənd mərkəzi binasının birinci mərtəbəsində qəlib-beton işləri artıq başa çatdırılıb. Hazırda arakəsmələrin hörgüsü aparılır. Birmərtəbəli xidmət mərkəzinin binası hörülür.

Kənddə aparılan quruculuq işləri bunlarla məhdudlaşmır. Belə ki, sakinlərin rahat gediş-gəlişinin təmin olunması məqsədilə 13 metr eni, 1500 metr uzunluğu olan kənd yolunun tikintisinə də başlanılıb. Hazırda yolun hamarlanması və bərkidilməsi işləri gedir. Son mərhələdə yola asfalt örtük salınacaq, yolun hər iki tərəfində 2,6 metr hündürlüyündə istinad divarı çəkiləcək.

Qeyd edək ki, ötən il Qaraxanbəyli kəndində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib. Bu gün kənd sakinləri ekoloji təmiz və dayanıqlı su ilə təmin edilib. Qaraxanbəylidə yeni məktəb binası, kənd və xidmət mərkəzləri tikilib istifadəyə verildikdən sonra kənd muxtar respublikanın müasir və abad yaşayış məntəqələri sırasına qoşulacaqdır.

✍ **Nail ƏSGƏROV**

*Xarici iqtisadi əlaqələrdə ixrac mühüm əhəmiyyətə malikdir. Məhz mal və xidmətlərin ixracı iqtisadi artımda mühüm rol oynayır, sahibkarlıq subyektlərinin və bütün ölkənin imicini yüksəldən amillərdəndir. Son illərdə ölkəmizin ixrac potensialının daha da yüksəldilməsi istiqamətində görülən işlər bu mühüm məsələyə diqqəti daha da artırıb. Buna görə də hər il davamlı olaraq xarici ticarət balansında müsbət saldo qorunub saxlanılır.*

## Naxçıvanın ixrac məhsulları milli brendimizdir

Ölkəmizin ixrac məhsulları çoxdur. Tarixən neftlə yanaşı, Azərbaycanda istehsal olunmuş çay, şərab, tütün, mineral sular, kondisionerlər və digər məhsullar təkcə keçmiş ittifaqda deyil, xaricdə də tanınıb. Müasir dövrdə isə ixrac etdiyimiz brend məhsullar ölkəmizi xarici bazarlarda tanıtmaqla valyuta ehtiyatlarımızın da artımında mühüm əhəmiyyətə malikdir. Bundan əlavə, xarici bazarlarda hamının tanıdığı brend məhsul onun sahibi olan ölkədəki keyfiyyətə ciddi nəzarətdən və işgüzarlıqdan xəbər verir. Bu baxımdan müstəqil Azərbaycanın tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının müasir ixrac potensialı diqqəti cəlb edir.

Naxçıvan özünün unikal təbii-mineral sərvətləri, turizm ehtiyatları və yüksəkkeyfiyyətli emal sənayesi məhsulları ilə yaxşı tanınır. Son illərdə muxtar respublikada özəl bölmənin inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsi bu baxımdan öz bəhrəsini verib. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada 371 növdə məhsul istehsal edilir. Bu qədər məhsul istehsal edilən Naxçıvandakı müəssisələrin bir çoxu artıq xarici bazarlarda özünə yer tutmağa başlayıb. Belə ki, bu gün muxtar respublikada fəaliyyət profilinə görə, 50-dən artıq müəssisə ixrac qabiliyyətinə malikdir. Həmin müəssisələr tərəfindən 60-dan çox növdə məhsul istehsal olunur. Naxçıvanda qida məhsullarının ekspertizası üzrə beynəlxalq tələblərə cavab verən laboratoriya fəaliyyət göstərir ki, ixrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar da məhz buradan təmin olunur.

Tarixən Naxçıvanın əsas ixrac məhsulları kimi tanınan, dünyada məşhur olan “Badamlı”, “Sirab” kimi mineral sularımıza, dünyada ən təmiz olan Duzdağ duzuna, daş və travertin, dadlı-tamlı ət və süd məhsullarına indi də böyük tələbat vardır. Keçmişdən fərqli olaraq müasir texnologiyanın tətbiq olunduğu və xarici bazarlarda ölkəmizin milli brendi kimi tanınan Naxçıvan məhsulları indi daha yüksək rəqabət qabiliyyətinə malikdir. Onlar arasında Naxçıvanın yüksəkkeyfiyyətli yerli xammalından emal olunmuş ət və süd məhsullarını, ilin bu mövsümündə hər yerdə tələbat görən göyçə, ərik kimi meyvələrini və meyvə şirələrini, qazlı aromatlaşdırılmış və spirtli içkilərini, vafli məmulatlarını, Naxçıvan sementi kimi yüksəkkeyfiyyətli tikinti məhsullarını, habelə gips, gips lövhələr, məsaməli beton məmulatları və mərmər, travertin daş və metal məmulatları, xam dəri, mebel və digər çox sayda məhsulları misal göstərmək olar. Naxçıvan məhsulları ölkəmizin digər yerlərindən başqa, Gürcüstan, Türkiyə, İran, Ukrayna, Birləşmiş Ərəb Əmirliklərinə, Rusiyaya da ixrac olunur. İxracın həcmindəki dinamika isə hər il davamlı artmaqdadır. Təkcə 2017-ci ilin ilk 4 ayı ərzində muxtar respublikada məhsul ixracının həcmi 97 milyon 921 min 400 ABŞ dollarını ötüb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Hazır məhsul şəklində Naxçıvandan ixrac olunan məhsullar muxtar respublika iqtisadiyyatının ümumi inkişaf potensialını artırmaqla yanaşı, həm də milli brendlərimizin sayının çoxalmasına, bu da, öz növbəsində, xarici bazarlarda Naxçıvana olan marağın artmasına və xarici turistlərin regionumuza səfər etməsinə səbəb olur. Ümumiyyətlə, Naxçıvanın beynəlxalq turizmə yeri, xarici turistlərin regiona səyahətləri və özləri ilə gətirdikləri xarici valyuta muxtar respublikamızın ixrac potensialını birbaşa artıran amillərdəndir.

Qeyd edək ki, muxtar respublikadan brend şəklində ixrac olunan məhsullardan biri də məhz turizm xidmətləridir. Belə ki, Naxçıvandan hazır əmtəə şəklində ixrac olunan brend məhsullarla yanaşı, Haçadağ vüqarı, Əlincə möhtəşəmliyi, Möminə xatın zərifliyi, Batabat gözəlliyi, Əshabi-Kəhf möcüzəsi, Duzdağ şəfası, Şərur yallısı, Ordubad adətləri, Naxçıvan lavaşı, Nehrəm kababı və daha çox sayda tanınmış turizm ehtiyatlarımızla turistlər ancaq Naxçıvana səyahət etməklə tanış ola bilərlər. Nəticədə, beynəlxalq turizm inkişaf etdikcə bu cür yerində ixracat forması ilə təkcə muxtar respublikamızdakı turizm və qonaqpərvərlik sənayesi deyil, eyni zamanda iqtisadiyyatın bütün sahələri də bu gəlirdən öz payını almış olur.

Yeni iqtisadi şəraitdə ölkəmizdə qeyri-neft məhsulları üzrə ixracın artırılmasında qarşıya qoyulmuş məqsədlərə çatmaq istiqamətində Naxçıvanda həyata keçirilən işlər öz bəhrəsini verməyə başlayıb. Lakin qarşıda geniş perspektivlər də vardır. Bir vaxtlar Naxçıvan iqtisadiyyatına yaxşı gəlir gətirmiş üzümçülük, baramaçılıq və tütünçülük kimi sahələrin inkişafına göstərilən diqqət yaxın gələcəkdə bu məhsullar üzrə də ixracat imkanlarını artıracaq.

✍ **Əli CABBAROV**

Yeni nəşrlər

## Gənc alimin dəyərli tədqiqat əsəri

***Müstəqillik dövründə Azərbaycanın demokratik dövlət kimi xarici siyasətinin müəyyənləşdirilməsi, sosial-iqtisadi, ictimai-siyasi münasibətlərinin formalaşdırılması, milli qanunvericiliyin yaranması ilə bağlı müxtəlif mövzular ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılmışdır. Bu tədqiqatlardan bəziləri isə regional əməkdaşlıq məsələlərinə, onun müxtəlif sahələrinə – Xəzərin enerji resurslarının hasilatı, nəqli sahəsində dövlətlərarası, dövlətlərlə beynəlxalq şirkətlər arasındakı münasibətlərin ümumi geosiyasi istiqamətlərinə həsr edilmişdir. Lakin konkret olaraq enerji təhlükəsizliyi, o cümlədən Xəzər regionunun enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri indiyədək ayrıca, sistematik şəkildə tədqiq olunmamışdır. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbovun yenicə çapdan çıxmış “Enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri” monoqrafiyası öz elmi əhəmiyyəti ilə seçilir.***




Monoqrafiya ilk olaraq qarşıya qoyulan problemin ümummilli liderimiz Heydər Əliyevin enerji siyasətinin formalaşması və inkişafındakı tarixi xidmətləri kontekstində öyrənilməsi ilə diqqəti cəlb edir. Yeni tədqiqat əsərinin yazılmasında çoxsaylı Qərb müəlliflərinin, beynəlxalq hüquq üzrə tanınmış ekspertlərin ingilis və rus dillərində olan əsərlərinə, eləcə də digər elmi mənbələrə müraciət edilmiş, ümummilli liderimiz Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nitq və çıxışlarına geniş yer verilmişdir.

Azərbaycan Respublikasının Xəzər regionunda enerji təhlükəsizliyi sferasında əməkdaşlığa üstünlük verdiyi məsələlərin yalnız bərabərhüquqlu, beynəlxalq-hüquqi vasitələrlə həllinə maraqlı olması monoqrafiyada bir daha öz elmi-nəzəri təsdiqini tapmışdır.

Yeni nəşrdə regional enerji təhlükəsizliyinin təminatında iştirak edən Azərbaycan Respublikasının həllinə diqqət yetirdiyi problemlər sistematik şəkildə, aşağıdakı kimi qruplaşdırılmışdır: Sovet İttifaqının enerji ehtiyatına olan tələbatının ödənilməsi məqsədilə, əsasən, Abşeron yarımadasında və Xəzər dənizində ekoloji nəticələr nəzərə alınmadan qeyri-təkmil üsulla onilliklər ərzində aparılmış neft hasilatı, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində flora və faunanın geniş miqyasda məhv edilməsi, Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyasının region üçün potensial təhlükə mənbəyi olması, nüvə silahının yayılmaması sahəsində mövcud beynəlxalq hüquq normalarına uyğun regional münasibətlərin tənzimlənməsi zərurəti, neft və qaz yataqlarının təhlükəsizliyi problemi, Xəzərin beynəlxalq-hüquqi statusunun müəyyən edilməməsi, Xəzər hövzəsinin Azərbaycan Respublikasına aid olan sektorunda yerləşən mövcud neft və qaz yataqlarının, habelə perspektivli strukturların işlənməsi, istismarı, müasir neft-qaz özüllərinin tikintisi və quraşdırılması, əsas ixrac neft və qaz kəmərlərinə olan təhdidlər və sair. Bu problemlər monoqrafiyada regiondakı iştirakçıların maraqları kontekstində araşdırılmış, ümumi maraqlar üçün mümkün mexanizmlərin müəyyən edilməsinə çalışılmışdır.

11 paraqraf və üç fəsildən ibarət monoqrafiyanın “Region dövlətlərinin enerji təhlükəsizliyi siyasəti və onun uzlaşdırılması üzrə əməkdaşlığın beynəlxalq-hüquqi formaları” adlanan I fəslində beynəlxalq enerji təhlükəsizliyi hüquq faktoru kimi araşdırılıb təhlil olunmuş, konkret elmi tərifi, eləcə də enerji resurslarının təsnifatı verilmişdir. Bu fəsildə vurğulanmışdır ki, Azərbaycan Respublikasının regionda ciddi tərəfdaşa çevrilməsində onun enerji resursları mühüm faktordur. Azərbaycan Respublikasının Xəzərin beynəlxalq statusunun müəyyən edilməsi istiqamətində Xəzər hövzəsi dövlətləri ilə əməkdaşlığı uğurlu milli siyasətin nəticəsi kimi qiymətləndirilmişdir. Xəzər regionu üçün təbii-coğrafi xüsusiyyətlər, nəqliyyat-kommunikasiya sistemləri kimi ümumiləşdirici meyarlardan, bu regiona aid olan dövlətlərin hər birinin milli maraqlarından ayrı-ayrılıqda danışılmışdır. Müəllif bir daha qeyd etmişdir ki, 1994-cü ildə ümummilli lider Heydər Əliyevin diplomatik fəaliyyəti nəticəsində “Əsrin müqaviləsi”nin imzalanması ilə ölkəmizdə regional təhlükəsizliyin uzunmüddətli təminat sisteminin əsası qoyulmuşdur.

Xəzər regionu dövlətlərinin müasir xarici siyasətini əhatəli şəkildə araşdıran müəllif Xəzərin beynəlxalq-hüquqi statusunun energetika sferasındakı regional əməkdaşlığa təsirini belə izah etmişdir ki, Xəzərin ümumi statusu üzrə beynəlxalq-hüquqi statusun müəyyən edilməsindəki problem, əslində, regional əməkdaşlıqdakı fərqli maraqların mövcud olmasını göstərir.

Gənc tədqiqatçı regional enerji təhlükəsizliyinin beynəlxalq hüquq prinsiplərinin hər birini ayrı-ayrılıqda izah etməklə bu prinsiplərin hasilatçı, tranzit və idxalçı ölkələrin maraqlarının qorunmasına xidmət etdiyini bildirmişdir. Sonda belə bir yekun nəticəyə gəlinmişdir ki, bu prinsiplərə həm beynəlxalq hüquq, həm də dövlətdaxili qanunvericilik təcrübəsində nə qədər ciddi əməl olunarsa, regional enerji təhlükəsizliyinin təminatı da bir o qədər səmərəli olar. Bu da, öz növbəsində, enerji təhlükəsizliyi ilə bağlı beynəlxalq münasibətlərin tənzimlənməsinin daha effektiv mexanizminin qurulması üçün əsas şərtlərdən biridir.

İlk fəsildə enerji təhlükəsizliyi sferasında region dövlətlərin milli konsepsiyaları, onların qanunvericilik əsasları ilə bağlı aparılmış müqayisəli təhlillər və bununla bağlı əldə olunmuş konkret elmi nəticələr də maraq doğurur.

Monoqrafiyanın “Regional energetika əməkdaşlığının həyata keçirilməsində Azərbaycan Respublikasının qanunvericiliyi” adlanan II fəslində isə Azərbaycan Respublikasında enerji resursları baxımından suverenliyi reallaşdırmaq istiqamətində görülmüş mühüm tədbirlərdən, “Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015) üzrə Dövlət Proqramı”nın əhəmiyyətindən və uğurla başa çatdırılmasından danışılmış və vurğulanmışdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 23 may 2007-ci ildə təsdiq olunmuş Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan Respublikasının energetika sferası da daxil olmaqla milli təhlükəsizlik siyasətinin əsasını təşkil edir, ölkənin milli maraqlarının və təhlükəsizlik siyasətinin hüquqi təminatının əsas qanunvericilik istiqamətlərini də müəyyən edir. Bu konsepsiya ölkəmizə qarşı enerji təhlükəsizliyi sferasında mümkün olan müxtəlif təhdidlərin qarşısının alınmasına, onların təsirini aradan qaldırmağa və ya azaltmağa xidmət edən mühüm dövlət sənədidir. Bu fəsildə Azərbaycan Respublikasının energetika qanunvericiliyindən bəhs edən müəllif onu da qeyd etmişdir ki, bu sahədəki mövcud qanunvericilik müəyyən problemlərin olmasına rəğmən regional əməkdaşlıqda beynəlxalq-hüquqi tənzimetmə üçün ümumi əsaslara malikdir. Həmin fəsildə Azərbaycan Respublikasının energetika qanunvericiliyi sistemi, enerji ehtiyatlarından istifadənin müqavilə formaları içərisində müasir dövrdə daha çox tətbiq olunan Hasilatın Bölgüsü Sazişləri də ətraflı tədqiq olunmuşdur. Azərbaycan Respublikasının energetika sferasında regional əməkdaşlığının çoxtərəfli və ikitərəfli beynəlxalq-hüquqi formalarından danışan müəllif bu tendensiyanı irəli sürmüşdür ki, ikitərəfli razılaşmaların bir qisminin yumşaq xarakter daşıması, meydana çıxa biləcək mübahisələrin həllində, əsasən, diplomatik (qeyri-məhkəmə, arbitraj mexanizmlərinin olmaması) yolların nəzərdə tutulması regional energetika inteqrasiyasını zəiflədən amil kimi qiymətləndirilməlidir.

Monoqrafiyanın “Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətində Naxçıvan Muxtar Respublikasının yeri” adlanan son fəslində muxtar respublikanın energetika sistemi, enerji təhlükəsizliyi olduqca mürəkkəb iqtisadi-coğrafi mövqeyi və geosiyasi vəziyyəti şəraitində öyrənilmişdir. Bu fəsildə ümummilli lider Heydər Əliyevin 1990-1992-ci illərdə muxtar respublikaya rəhbərlik etdiyi dövrlərdə Naxçıvanın Türkiyə və İranla iqtisadi, ticarət, mədəni əməkdaşlığın genişləndirilməsi nəticəsində muxtar respublikanın enerji təminatı istiqamətində görülmüş əhəmiyyətli işlərdən danışılır. 2005-ci ilin noyabr ayından muxtar respublikaya təbii qazın verilməsinə başlanılmış, 2008-ci ildə muxtar respublikanın bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Müəllif Naxçıvan Muxtar Respublikasının energetika sisteminin formalaşmasında və onun beynəlxalq xarakter kəsb etməsində Türkiyənin rolundan ayrıca danışmışdır.

Naxçıvan Qaz Turbin Elektrik Stansiyasının istifadəyə verilməsindən, muxtar respublikanın enerjiyə olan tələbatının əsas hissəsinin burada işə salınmış su elektrik stansiyalarının hesabına ödənilməsindən, bərpa olunan və alternativ enerji mənbələrindən istifadə məqsədilə Günəş Elektrik Stansiyasının tikilib-quraşdırılmasından danışan müəllif elektrik enerjisi sektorunda həyata keçirilən bu tədbirləri haqlı olaraq Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinə, istehsalat və xidmət sahələrinin sabit enerji ilə təminatının yaxşılaşdırılmasına mühüm töhfə kimi dəyərləndirmişdir. Qeyd olunmuşdur ki, bu sahəyə rəhbərlik qabaqcıl Avropa ölkələrinin təcrübəsinə uyğun qurulmaqdadır. Bu fəsildə muxtar respublikada energetika sisteminin idarəçiliyi ilə məşğul olan Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin fəaliyyətindən də bəhs olunmuşdur. Vurğulanmışdır ki, muxtar respublikanın enerji təhlükəsizliyi bütün istiqamətlərdə möhkəmləndirilməkdədir. Bunu institusional islahatların həyata keçirilməsi, yüksək texnoloji avadanlıqlar alınması üçün xarici sərmayələrin cəlb olunması, yerli kadr potensialının gücləndirilməsi və yüksək ekostandartların enerjiyə qənaət prinsipinin tətbiqi bir daha təsdiq edir.

Son fəsildə Naxçıvanın enerji təhlükəsizliyi üzrə Azərbaycanın qonşu dövlətlərlə bağladığı müxtəlif beynəlxalq sənədlərin, o cümlədən beynəlxalq saziş, razılaşma və memorandumların, muxtar respublikanın dövlət qurumlarının Naxçıvan Muxtar Respublikasının energetika kompleksinin inkişafı məqsədilə qəbul etdiyi müxtəlif aktların, Naxçıvan Muxtar Respublikasında “Elektrik enerjisindən istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında qərarın əhəmiyyətindən bəhs olunmuşdur. Müəllif Azərbaycan Respublikasının yanacaq enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramında (2005-2015), Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının geoiqtisadi vəziyyətinə xüsusi əhəmiyyət verildiyini də diqqətə çatdırmışdır.

Müəllif muxtar respublikanın elektrik enerjisinin nəqli sahəsindəki beynəlxalq-hüquqi əməkdaşlıqdan danışarkən bu əməkdaşlığın təməlinin ümummilli lider Heydər Əliyev tərəfindən 1992-ci ildə qoyulduğunu diqqətə çatdırmış, qonşu dövlətlərlə imzalanan müxtəlif müqavilələri təhlil etmişdir. Həm beynəlxalq hüquqda, həm də dövlətdaxili qanunvericilikdə beynəlxalq müqavilələri bağlamaq səlahiyyətində olan vəzifəli şəxslərin təsnifatının verilməsindən danışan müəllif qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qanunvericilikdə müxtəlif sahələr üzrə beynəlxalq müqavilələr bağlamaq səlahiyyətinə malik olması Azərbaycan Respublikasının suveren hakimiyyətinin bölgüsü anlamına gəlməyib, yalnız Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyəti ilə bağlıdır. Naxçıvan Muxtar Respublikasının iştirakı ilə bağlanan beynəlxalq müqavilələrdə Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının mənsubiyyətində göstərilməsi də bunu bir daha təsdiqləyir. Müəllif Naxçıvan Muxtar Respublikasının bu təmsilçilik funksiyasının Azərbaycan Respublikası Konstitusiyasına və “Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğvi qaydaları haqqında” Qanununa əlavə edilməsini məqsədəuyğun hesab etmiş, bununla bağlı monoqrafiyada konkret təkliflər vermişdir.

Hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbovun “Enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri” monoqrafiyasında qarşıya qoyulan problemin beynəlxalq-hüquqi əsaslarının tədqiq olunması Azərbaycan beynəlxalq hüquq elmi üçün mühüm yenilikdir. Monoqrafiyada müəllif tərəfindən irəli sürülən, əsaslandırılmış yeni elmi müddəalar, yekun elmi qənaətlər enerji təhlükəsizliyi sferasında dövlətlərarası əməkdaşlıqda, o cümlədən regional layihələrin həyata keçirilməsində, Azərbaycan Respublikasının Avropa ölkələri ilə, beynəlxalq təşkilatlarla enerji təhlükəsizliyi münasibətlərində, bu sahədəki mövcud qanunvericiliyin təkmilləşdirilməsində əhəmiyyətli rol oynayacaq. Yeni nəşr, bütövlükdə, beynəlxalq hüquq elminin inkişafına, Azərbaycan Respublikasının enerji diplomatiyasının formalaşdırılmasına xidmət edən “Beynəlxalq təhlükəsizlik hüququ”, “Beynəlxalq iqtisadi hüquq” fənlərinin tədrisində, yeni tədqiqat işlərinin yazılmasında istifadə olunacaq dəyərli elmi mənbədir. Bütün bunlar nəzərə alınaraq Naxçıvan Dövlət Universiteti Elmi Şurasının qərarı ilə hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbovun “Enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri” monoqrafiyası dərs vəsaiti kimi təsdiq olunmuşdur. Monoqrafiya hüquqşünaslıq, beynəlxalq münasibətlər və energetika ixtisaslarında seçmə fənlərin tədrisi zamanı dəyərli elmi mənbə kimi istifadə olunacaqdır.

**Mehriban SULTAN**
*filologiya üzrə fəlsəfə doktoru*

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

***Bu ilin may ayı ərzində Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, idarə edilməsi və tənzimlənməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirib.***

Ötən ay Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikada olma, müvəqqəti yaşama, habelə əmək fəaliyyəti ilə məşğul olma qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərinin pozulması üzrə 20 nəfər əcnəbi aşkarlanıb. Bunlardan 16 nəfər əcnəbi barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərketmə, 3 nəfər əcnəbi barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib. Bir nəfər əcnəbinin isə ölkə ərazisində yaşaması leqallaşdırılıb.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 918 müraciət daxil olub. Daxil olmuş müraciətlərdən 82-si əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır.

Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Ötən ay ərzində olduğu yer üzrə qeydiyyatla bağlı xidmət tərəfindən 836 müraciət qeydə alınaraq icrası təmin edilib. Həmin müraciətlərin 240-ı xidmətin sərhəd-buraxılış məntəqələrində fəaliyyət göstərən bölmələri tərəfindən qəbul və icra edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

# Ölkənin aparıcı media nümayəndələrinin Naxçıvan təəssüratları

***Xəbər verdiyimiz kimi, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə 31 may -2 iyun tarixlərində ölkənin aparıcı media nümayəndələri muxtar respublikaya səfər ediblər. Səfər çərçivəsində onlar Naxçıvan Dövlət Universitetində "Naxçıvanın turizm potensialının tanıdılmasında medianın rolu" mövzusunda keçirilən konfransda iştirak edib, qədim diyarımızın tarixi-mədəni abidələri, istehsal, mədəniyyət, təhsil müəssisələri, gəzməli-görməli yerləri ilə tanış olublar. Media nümayəndələri səfər təəssüratlarını bizimlə bölüşüblər.***

***Hikmət Məmmədov – "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı:*** "Gördüklərimizə əsasən deyirəm ki, Naxçıvan nə qədər qədim diyar olsa da, bir o qədər də müasir, bir o qədər də modern bir şəhərdir. Bu gün Naxçıvanda qədimdən bəri yaşadılan quruculuq ənənələri çox uğurla davam etdirilir. İnsanın ürəyində qürur, fəxarət hissi yaradır ki, bu gün üç dövlətin sərhədində olan Naxçıvan inkişaf edir, böyüyür, abadlaşır. İnsanlar rifah içərisində yaşayırlar. Muxtar respublikanın çox böyük turizm potensialı var. Naxçıvan Azərbaycan xalqının tarixinin, siyasi keçmişinin mərkəzlərindən biri olubdur. Amma mən düşünürəm ki, Naxçıvan haqqında danışanda onu təkcə Azərbaycan xalqının siyasi tarixi ilə əlaqələndirmək bir qədər ədalətsizlik olar. Çünki Naxçıvan şəhəri və Naxçıvan Muxtar Respublikası bütövlükdə Yaxın Şərqin, müsəlman dünyasının mühüm mədəniyyət mərkəzlərindəndir. Ona görə də Naxçıvan bu gün inkişaf etməkdə olan turizm mərkəzlərindən birinə çevrilib. Çünki Şimali Afrikadan tutmuş Yaxın Şərqə qədər böyük müsəlman coğrafiyasında yaşayan bütün xalqlar burada öz keçmişlərinə, mədəniyyətlərinə aid nə isə tapa bilərlər.



Naxçıvan haqqında bilgilər və yaxud Naxçıvan haqqında turistləri maraqlandıracaq məsələlər bununla məhdudlaşmır. Biz bilirik ki, ezoterik bilgilərdən olan "Nuh əfsanəsi" də Naxçıvanla bağlıdır. Əgər bunu və Naxçıvanda Nuh Peyğəmbərin məzarının olduğunu da nəzərə alsaq, bu, hər bir vətəndaş üçün, hər bir turist üçün olduqca maraqlı faktdır. Naxçıvan bütövlükdə bizim milli yaddaşımızın ensiklopediyasıdır. Burada beşminillik şəhərsalma tariximizin hər bir səhifəsi ilə qarşılaşmaq olar. Təkcə Qarabağlar türbəsi Naxçıvanın qədim tarixi və mədəniyyəti haqqında insanlara kifayət qədər informasiya verir.

Naxçıvanda turizmin inkişafı üçün çox böyük infrastruktur formalaşdırılıb. Biz bunun şahidi olduq. Ən ucqar kəndlərdə belə, müasir yollar var. İşğalçı Ermənistanla sərhədədək, ən ucqar dağ kəndlərinədək çox gözəl abad yollar çəkilib, məktəblər tikilibdir. İnsanlarda çox yüksək vətənpərvərlik əhval-ruhiyyəsi var. Mən düşünürəm ki, bu gözəl diyar öz nemətləri ilə çox böyük turizm imkanları yaratmağa qadirdir. Bu istiqamətdə də mühüm işlər görülübdür. Bu gün biz Naxçıvanda istehsal olunan məhsulların sərgisində olan zaman "Made in Azerbaijan" brendi adı altında beynəlxalq bazara çıxarılacaq çoxlu məhsullar gördük. Bu, sənayedən, hətta avtomobil sənayesindən başlamış ərzaq məhsullarına qədər geniş bir spektri əhatə edir. Ona görə də mən düşünürəm ki, Naxçıvan Azərbaycanın ən inkişaf etmiş turizm mərkəzlərindən birinə çevriləcək".

***Aqil Abbas – "Ədalət" qəzetinin təsisçisi, Milli Məclisin deputatı:*** "Naxçıvanda aparılan quruculuq, abadlıq və yaşıllaşdırma mənim çox xoşuma gəlir. Avropada tətbiq olunan kənd turizm modeli necə illərdir ki, Naxçıvanda tətbiq olunur. Digər bir tərəfdən, Naxçıvanda o qədər turizm məkanları var ki, onlar bu sahənin inkişafı üçün real şərait yaradır. Tarixi abidələri, təbiətinin zənginliyi, havası, suyu, təbii müalicə mərkəzləri Naxçıvanın turistlərə təqdim etdiyi zənginliklərdir. Şahbuzu cənnət, Ordubadı incidir bu torpağın. Yəni Naxçıvanın harasında olsanız, hər yerin özünün bir qəribə özəlliyi və gözəlliyi var. Nuhun ayağı dəyən Naxçıvan torpağının hər qarışında qədimlik, millilik var. Qəribə bir fakt deyim. Suriyanın torpağı qırmızıdır, qeyri-adi torpaqdır. Mən həmişə maraqlanmışam, deyirlər bütün peyğəmbərlər Suriyada doğulub. Ona görə də o torpaq qəribədir. Sonra ilk dəfə Naxçıvana gələndə gördüm ki, Naxçıvan torpağı da qırmızıdır. Bu nə üçündür? Bura da Peyğəmbər ayağı dəyib. Ona görə Naxçıvan torpağı müqəddəsdir".



***Həsən Həsənov – "Xalq qəzeti"nin baş redaktoru:*** "Hər bir jurnalist səfər sonu özünün təəssüratlarını qeydə alır və onu oxuculara, dinləyici, tamaşaçı auditoriyası ilə bölüşür. Peşə etikamız, peşə borcumuz bizdən tələb edir ki, hazırladığımız informasiyalar, yazdığımız məqalələr real gerçəkliyi əks etdirsin, obyektiv olsun. Naxçıvanda mövzu qıtlığı yoxdur. Ona görə ki, Naxçıvanda bütün sahələrdə, sosial-iqtisadi sahələrdə göstəricilər olduqca yüksəkdir. Naxçıvan tikinti, abadlıq-quruculuq işləri böyük vüsət alıb. Naxçıvanda işgüzarlıq bütün cəmiyyətə hakim kəsilib. Mən hesab edirəm ki, Naxçıvan bizim digər bölgələrimiz üçün nümunə olmalıdır. Naxçıvan model kimi qəbul olunmalıdır. Naxçıvan işgüzarlıq modelidir. Naxçıvan qabaqcıl təcrübə modelidir. Naxçıvan intellektuallıq modelidir. Naxçıvan müasirlik modelidir. Naxçıvan qısa zaman kəsiyində yüksək intibaha qovuşmaq modelidir. Mənim rəhbərlik etdiyim "Xalq qəzeti" uzun illərdir ki, Naxçıvan Muxtar Respublikası ilə sıx əməkdaşlıq edir. Naxçıvanda bizim yüzdən artıq müəllifimiz var. Bax bu müəlliflərin hamısı yüksək peşəkarlığa, yüksək intellektə malik insanlardır. Mövzunu çox geniş və dolğun əhatə edirlər. Faktlar dəqiqdir. Onların yazılarını oxuyanda bir daha əmin olursan ki, Naxçıvan əsl vətənpərvər insanların yurdudur. Həqiqətən, Naxçıvan Muxtar Respublikasının turizm potensialı olduqca yüksəkdir və bizim media nümayəndələrinin üzərinə bu yüksək potensialın təbliği və reklamı üçün böyük məsuliyyət düşür, böyük vəzifələr durur qarşımızda. Hesab edirəm ki, biz bu vəzifələrin öhdəsindən layiqincə gələcəyik.



Biz Sədərək rayonunda, Şərurda, Kəngərlidə, Ordubadda, Şahbuzda olduq. Sədərək rayonunda cəbhə xəttində xidmət keçən əsgərlərimizlə, zabitlərimizlə görüşdük. Təsəvvür edin, Heydərabad qəsəbəsi və Sədərək düşmən postundan 150-200 metr məsafədə yerləşir. Amma həyat normal axarında davam edir. Əmin olduq ki, bizim torpaqlarımız, bizim sərhədlərimiz çox etibarlı şəkildə qorunur. Əmin olduq ki, Azərbaycan Ordusu, sözün həqiqi mənasında, dünyanın ən qüdrətli ordularından biridir. Ən müasir silahlarla təchiz olunub və bu, bizə qətiyyətlə deməyə imkan verir ki, bizim torpaqlarımızın işğaldan azad olunacağı gün uzaqda deyil.

Açığı, mən birinci dəfə idi ki, Ordubadda olurdum. Mən Azərbaycanın müxtəlif bölgələrində tarix-diyarşünaslıq muzeylərində olmuşam. Amma etiraf edirəm ki, Ordubaddakı muzey qədər mənə təsir edən ikinci bir muzey olmamışdır. Çox zəngin muzeydir. Bütün tariximizi, təsəvvür edin Paleolit dövründən tutmuş müasir tariximizə qədər bizim tariximizi, zəngin mədəniyyətimizi əks etdirir".

***Vüsalə Mahirqızı – "APA-Holdinq"in prezidenti:*** "Budəfəki səfərimiz Naxçıvanın turizm potensialı barədə nəinki mərkəzi mediada, ümumiyyətlə, yaxın xarici ölkələrdə məlumat verilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Mən düşünürəm ki, bizim səfərimiz, təbii ki, bu mövzunu genişləndirəcək, mərkəzi mediada növbəti dəfə gördüyümüz, getdiyimiz yerlər barədə məlumat yayacağıq. Amma bütün bunlarla yanaşı, həmçinin mən düşünürəm ki, bizdən əlavə olaraq gələcəkdə turizm agentliklərinin də rəhbərləri, ayrı-ayrı sahələri əhatə edən jurnalistlər, marketinq şirkətlərinin nümayəndələri də Naxçıvana səfərlər etməlidirlər. Əlbəttə, konfransda da biz bu barədə müzakirələr, diskussiyalar apardıq.



Məncə, Naxçıvanda təbliğ olunmalı əsas məsələlərdən biri də buradakı sabitlikdir, burdakı təhlükəsizliyin yüksək səviyyədə olmasıdır. Çünki turizm üçün ən önəmli faktorlardan biri budur və Naxçıvanın gözəl təbiəti, yaxşı mineral suları, qurulmuş infrastrukturu ilə yanaşı, onun ən yaxşı sərvətlərindən biri də məhz bu gün bu təhlükəsizliyin olmasıdır. Belə deyək, Naxçıvanda bütün turizm infrastrukturunun turist qəbul eləməyə hazır olmasıdır. Düşünürəm ki, artıq Naxçıvanda biz hansı bir bölgəyə baxa-baxa gedirik, ən ucqar yerə qədər internet infrastrukturu da digər infrastrukturlar kimi qurulubdur və bu gün dünyada ən maraqlı sferalardan biri onlayn ticarətin olduğu sferadır. Məsələn, biz Bakıda yaşayırıq və mən görürəm ki, orijinal məhsullar Naxçıvanda olur. Çünki onlar tərkibində geni modifikasiya olunmuş məhsullar deyillər. Tamamilə təbii, eyni zamanda turizm, sağlamlıq baxımından ekoloji təmiz məhsullardır. İstər buradakı mineral sular, istər Duzdağın duzu, Naxçıvanın göyçəsi, məşhur balı, balığı, mürəbbələri hər kəs tərəfindən çox bəyənilir. Dostlar, tanışlar bütün bunların mütləq Naxçıvandan gətirilməsini xahiş edirlər. Bu da turizm potensialını göstərən əsas amillərdəndir".

***Sevil Mikayılova – "Azərnews" qəzetinin baş redaktoru:*** "Naxçıvan haqqında təəssüratlarım həddindən artıq böyükdür. Bu torpağa ilk dəfə qədəm qoyanda şəhər və kəndlərdəki təmizlik, səliqə-sahman, həqiqətən, məndə xoş təəssüratlar yaratdı. Sanki tamamilə başqa bir aləmdəyəm. Naxçıvanın görməli yerlərinə səfər etdik, hərtərəfli inkişafının şahidi olduq. Açıq ürəklə deyirəm ki, Naxçıvan böyük turizm mərkəzinə çevriləcək qədər potensiala malikdir. Duzdağ Azərbaycanda və dünyada analoqu olmayan bir məkandır. Hər bir jurnalist ölkəmizdə və dünyada Duzdağı təbliğ etməli, Azərbaycanın belə möcüzəli yerinə turist cəlb etməlidir. Naxçıvanın tarixi yerlərində qədimlik və ululuq var. Bir sözlə, gördüklərim onu deməyə əsas verir ki, Naxçıvan nümunəvi bir məkandır və məhz bu aspektdən parlaq gələcəyə malikdir".



***Sevinc Seyidova – "Həftə içi" qəzetinin baş redaktoru:*** "Naxçıvanın təbliğatı ilə məşğul olmaq lazımdır. Çox istərdim ki, gələcəkdə digər jurnalist heyəti də bura gəlsin. Onlar da Naxçıvanla tanış olsunlar. Və yaxud da Naxçıvanla, onun görməli yerləri, inkişafı ilə bağlı yazı müsabiqəsi elan olunsun. Muxtar respublika bir çox cəhətdən – aparılan quruculuq işləri, tarixi-mədəni irsi, zəngin mədəniyyəti, mətbəxi, təbiəti, təmizliyi və sair ilə nümunədir. Güman edirəm ki, həm jurnalist, həm də bir vətəndaş olaraq blokada şəraitində yaşayan Naxçıvanın müasir inkişafını, turizm potensialını təbliğ etmək hər kəsin borcudur. Mən Naxçıvanda gördüklərimdən qürur duyuram. Bura Azərbaycanın döyünən ürəyi, düşünən beynidir".



**Təhminə BABAYEVA**

# Naxçıvanın mədəniyyət abidələri: Azərbaycan multikulturalizminin simvolu

***İyirmi ildən artıqdır, Ermənistan tərəfindən tətbiq edilən ağır iqtisadi blokadaya baxmayaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Yusif oğlu Talıbovun rəhbərliyi altında Azərbaycanın Naxçıvan Muxtar Respublikasında tarixi və mədəni abidələrin bərpası işlərinin həyata keçirilməsi istiqamətində çox mühüm uğurlar əldə edilmişdir.***

Belə abidələrdən biri olan Möminə xatın türbəsi Azərbaycan memarlıq məktəbinin banisi və nüfuzlu Avropa memarlıq məktəbinin müəllimi hesab edilən Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Naxçıvan şəhərində tikilmişdir. Möminə xatın türbəsi Azərbaycanın milli memarlığı və Şərq memarlığının incisi hesab olunur. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş və onun tikintisi oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən 1186-cı ildə Naxçıvan şəhərinin qərbində başa çatdırılmışdır. Abidənin baştağında kufi xətti ilə bu sözlər yazılmışdır: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Abidənin ümumi hündürlüyü 34 metr olmuş, sonralar 8 metr hündürlükdə olan xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) hissə və nadir əsərlərlə üzlənmiş divarlardan ibarətdir. Divarların üzərində olan açıq mavi konturlar mədəni abidəni üzərində mədəniyyətlərarası dialoq və tarixi xəzinələrin əks olunduğu memarlıq əsərinə çevirir. Tanınmış tarixçi M.V.Alpatov qeyd etmişdir ki, "Naxçıvan şəhərində olan Möminə xatın türbəsi nadir gözəllik və zəriflik abidəsidir və geniş şəkildə Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərinin mövzusunu əks etdirir".

Digər nadir memarlıq abidəsi isə Naxçıvan şəhəri, Şeyx Məhəmməd Xiyabani küçəsində yerləşən Yusif Küseyir oğlu türbəsidir. Xalq arasında "Atababa günbəzi" də adlanır. Bu türbə XXI əsrin əvvəlində bərpa edilmişdir. Abidə yeraltı sərdabədən və yerüstü qüllevarı hissədən ibarətdir. Planda abidənin yerüstü hissəsi daxildən və xaricdən səkkizbucaqlı şəkildədir. Divarların qalınlığı 80 santimetrdir və bişmiş kərpicdən (20x20x4,5 sm) inşa edilmişdir. Türbənin səkkizbucaqlı prizmatik gövdəsi xaricdən piramidaşəkilli, daxildən isə tavan çatma tağşəkilli sferik günbəzlə örtülmüşdür. Türbədə biz ikiqat günbəz quruluşun zəmanəmizə gəlib çatmış yeganə bir nümunəsini görürük. Yusif Küseyir oğlu türbəsi Qafqaz regionunda olan yeganə bir türbədir ki, mədəni təsir və dini incəsənəti özünün qülləşəkilli səciyyəvi xüsusiyyəti və memarlıq cizgilərində birləşdirmişdir.




Qarabağlar türbəsi isə Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən orta əsrlərə aid tarixi-memarlıq abidəsidir. Abidənin çox qiymətli mədəni xəzinəsi son zamanlar təmir edilərək cilalanır. Əlavə olaraq abidənin yaxınlığında qoşa minarə və onların arasında yerləşən dini bina tikililəri qalmaqdadır. Qoşa minarənin XII əsrin sonu, XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağı isə XIV əsrə aiddir. Abidə Hülakü xan tərəfindən arvadı Quti xatının şərəfinə tikilmişdir. Qoşa minarəli baştağın kitabəsində ərəb dilində bu sözlər yazılmışdır: "Allahın bu nişanəsi türkmən Quti xatındır". Türbənin 12 bucaqlı yeraltı sərdabəsinin divarları daşdan, günbəzləri isə kərpicdən hörülmüşdür. Türbənin səthi qırmızı və firuzəyi kaşılı kərpiclə örtülmüş həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir.

Qarabağlar abidəsinin üzərində olan kitabələrin mətni şaquli şəkildə, dəfələrlə təkrarlanan rombların içərisində yazılan "Allahdan başqa Allah yoxdur, Məhəmməd onun rəsuludur" kəlamlarından ibarətdir. Türbənin kompozisiya xüsusiyyəti onun 4 baştağlı olmasından (səthi qırmızı və firuzəyi kaşılı kərpiclə örtülmüş həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir) və türbənin yuxarısındakı kitabə qurşağının nəsx xətti ilə işlənməsindən ibarətdir. Bu mədəni abidə XI əsr Fransız memarlıq məktəbinə təsir etmiş Bərdə türbəsinin müəllifi Əhməd Əyyub oğlu Hafiz Naxçıvani tərəfindən inşa edimişdir.

Naxçıvan Mesopotamiya ədəbiyyatı, Şumer və Qədim Yunan dini əlyazmalarında diqqət mərkəzində olan, İslam mədəniyyətində mühüm yer tutan Nuh Peyğəmbərin vətənidir.

**Peter TASE**
***04.06.2017***
***"Soberania digital" qəzeti, Argentina***

# Nümunəvi məktəbəqədər tərbiyə müəssisəsi

***Tərbiyə ocaqlarında işin düzgün qurulması uşaqların davranışına, ünsiyyətinə ciddi təsir göstərir. Günün əsas hissəsini burada, həmyaşıdlarının əhatəsində keçirən uşaqlarda mühitə, insanlara öyrəşmək məsələsi də öz həllini tapır. Oyuncaqlarını, yemək zallarını, yataq otaqlarını paylaşdıqları üçün onlarda həmçinin sosiallaşmaq, bölüşmək, hər şeyin yalnız ona aid olmadığını qəbul etmək kimi xüsusiyyətlər də formalaşır.***



Muxtar respublikamızda fəaliyyətini uşaqların düzgün təlim-tərbiyəsi istiqamətində quran məktəbəqədər tərbiyə müəssisələrindən biri də Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasıdır. Ümumilikdə, 245 yerdən ibarət olan bağçada uşaqlar yaş üzrə 13 bağça qrupuna bölünüb.

Adıçəkilən bağçanın müdiri Aynur Əhmədova bildirdi ki, bağçalar uşaqların cəmiyyətə uyğunlaşmasında, onlarda gələcəkdə problemlərə yol aça biləcək psixoloji məqamların – utancaqlıq, çəkingənlik xüsusiyyətlərinin tədricən aradan qaldırılmasında mühüm rol oynayır. Keçirilən tədbirlərdə iştirak etdikcə uşaqlar sərbəstlik qazanırlar. Burada aparılan müxtəlif məşğələlər nəticəsində onlar həm də zehni, fiziki cəhətdən inkişaf edirlər. Riyaziyyat, savad təlimi, rəsm, quraşdırma, fiziki mədəniyyət və sair kimi məşğələlər yüksək səviyyədə keçirilir. Bu məşğələlər nəticəsində uşaqlarda əl qabiliyyəti üzə çıxarılır, onların maraq dairəsi genişlənir. Savad təlimi məşğələsində uşaqlar hərflərlə tanış olurlar. Bu məşğələni məktəbə atılan ilk addım hesab etmək olar. Riyaziyyat məşğələsinə rəqəmlərlə tanışlıqla başlayan uşaqlar tədricən toplama, çıxma əməliyyatlarını öyrənirlər. Bunu onlara asan yolla aşılamaq üçün tərbiyəçilər meyvələrdən, çubuqlardan və ya hər hansı bir əşyadan istifadə edirlər. Rəsm və quraşdırma məşğələlərində isə uşaqlar tamamilə sərbəstdirlər. Çəkdikləri rəsmdə və ya quraşdırdıqları hər hansı bir fiqurda onların maraq dairələri, əl qabiliyyətləri üzə çıxır.

Məşğələlərdə iştirak etdiyimiz zaman keçilən dərslərin uşaqların qavraya biləcəyi metodlarla onlara başa salındığının şahidi olduq. Uşaqlara vətən, ana, qəhrəmanlıq haqqında hekayələr oxunur, şeirlər əzbərlədilir. Onlar əlamətdar günlərimizin mahiyyəti və tarixçəsi ilə yaxından tanış edilir, bu mövzuda keçirilən tədbirlərə qatılırlar.





Bağçada vətənə sevgi hissləri peşəkar səviyyədə təbliğ olunur və elə bu baxımdan da tərbiyəçilər vətənpərvər nəslin yetişməsində yaxından iştirak edirlər. Burada uşaqlara həmçinin Azərbaycan kinofilmləri, cizgi filmləri göstərilir, milli və mənəvi dəyərlərimiz balacalara aşılanır.

Bağçada 4 məktəbəqədər hazırlıq qrupu var. Qrup müəllimlərindən Arzu Heydərova, Rüxsarə Məmmədova bildirdilər ki, bu qrupda uşaqlar ilkin məlumatlara, yazı, hesab vərdişlərinə yiyələnirlər ki, bu da onların gələcək təhsili üçün vacibdir. Uşaqlar üzündən sərbəst oxuya, sadə riyazi məsələləri həll edə bilirlər.

Rüxsarə Məmmədovanın qrupundakı uşaqlardan Şəfəq Budaqova, Müşfiqə Məmmədzadə, Gülay Rüstəmli öz fəallıqları ilə seçilirlər. Bunlardan əlavə, onların məktəbə tam şəkildə hazırlanması üçün müxtəlif məşğələlər də aparılır.

Kiçik yaş qrupunun tərbiyəçisi Səbinə İsmayılova qrupunda olan uşaqların bağçadakı günlük rejimi barədə belə dedi:

– Əvvəlcə himnimiz oxudulur, idman məşğələləri edilir. Səhər çayı içiləndən sonra şeirlər qiraət edilir, nağıllar danışılır, mahnılar öyrədilir. 1-2 saatdan az olmayaraq davam edən bu məşğələdən sonra nahar yeməyi üçün süfrə ətrafına toplaşırlar. Yeməkdən sonra uşaqlar yatırlar. Yuxudan qalxıb çaylarını içdikdən sonra isə müxtəlif məşğələlərə yenidən davam edirik. Uşaqlar plastilindən, rəngli kağızlardan fiqurlar düzəldirlər, ən yaxşıları isə sərgidə nümayiş olunur.

İndi isə keçək bağçanın ictimai işlərdəki fəaliyyətinə. Sazlı-sözlü bir çox tədbirlərdə iştirak etdiyimdən bu bağçanın uğurlu çıxışlarından xəbərdaram. "Çıxış edir Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının balaca fidanları". Tədbirlərin proqramında bu adla az rastlaşmamışam.

Bağçanın kütləvi tədbirlərdə fəallıq göstərən uşaqları ilə tanış olmağa tələsirəm. Eşitdiyim musiqi sədalarının təsiri altında ilk olaraq rəqs məşğələsi gedən zala doğru addımlayıram. Qapını açıb içəri daxil oluram. Zalın tən ortasında "günəş paltarı" geyinmiş bir uşaq və onun ətrafına fırlanan balacaları görürəm. Onlar böyük həvəslə növbəti tədbirə hazırlaşırlar. "Uğur olsun", – deyib, bir küncə çəkilib məşq prosesini kənardan izləyirəm. Uşaqların rəqslərdə, yaxud da müxtəlif tamaşalarda istifadə etdikləri belə gözəl geyimlərə gəldikdə isə bu paltarların tikilməsi üçün bağçada dərzi otağı da vardır.

Bağçanın uşaqları muxtar respublikada keçirilən bir çox tədbirlərdə də fəal iştirak edirlər. Yeni il, Novruz bayramı şənliklərində, əlamətdar günlərə həsr olunmuş tədbirlərdə onlar öz şeir və rəqsləri, müxtəlif kompozisiyaları ilə çıxış edirlər. Müsabiqələrə gəldikdə isə 2015-ci ildə muxtar respublikada fəaliyyət göstərən uşaq bağçaları arasında keçirilən "Uşaqlar və milli kinomuz" adlı telelayihədə Naxçıvan şəhər 11 nömrəli uşaq bağçası II yerə layiq görülüb. Ötən il iyun ayının 1-i Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən tədbirdə fəal iştirakına görə bağça "İlin ən istedadlı kollektivi" adına layiq görülüb. Müxtəlif müsabiqələrdə dəfələrlə yer tutan bağçanın uşaqları şeir müsabiqələrinin birində birinci, ikinci və üçüncü yerlərin sahibi olublar. Bu il də ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş şeir müsabiqəsində bu bağçanı təmsil edən Xalidə Əliyeva ikinci yerlə mükafatlandırılıb.

Bağçanın uğurlarında bütün kollektivin böyük əməyi vardır. Belə ki, bağçanın tərbiyəçiləri də muxtar respublikanın ictimai həyatında fəallıq göstərir, müxtəlif müsabiqələrdə iştirak edirlər. 15 may – Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Rəssamlar Birliyi və rayon (şəhər) icra hakimiyyətləri ilə birgə orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri, ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri və istedadlı gənclər arasında keçirilən "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda IV muxtar respublika yazı və rəsm müsabiqələrinə bağçanın tərbiyəçiləri əl işləri və inşalar təqdim ediblər. Onlardan Lamiyə Paşayeva inşa yazısı ilə ikinci yerə layiq görülüb.

Qeyd edək ki, bağçanın kollektivi 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü, eləcə də iyun ayının 3-ü və 4-də keçirilən "Göycə" festivalında da uğurla iştirak edib. Kollektivin festivalda nümayiş etdirdiyi Zümrüd quşu və Bayraq meydanı maketləri iştirakçılar tərəfindən maraqla qarşılanıb.

**Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 7 iyul 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 0,1475 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 85,8 kv.m yaşayış, 81,29 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Aşağı Aralıq kəndi | 39 000 | 1 950 |
| 2. | 0,1155 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 81,3 kv.m yaşayış, 46,268 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Aşağı Aralıq kəndi | 28 000 | 1 400 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 3 iyul 2017-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:
- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 7 iyul 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## "Naxçıvan dialekt və şivələrinin lüğəti" kitabı işıq üzü görüb

*AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin əməkdaşları Naxçıvan Muxtar Respublikasının dialekt və şivələrinin öyrənilməsi və təbliği istiqamətində işlərini davam etdirirlər.*




Müxtəlif illərdə şöbə əməkdaşlarının "Naxçıvan dialekt və şivələri", "Naxçıvan ağızlarının söz varlığı", "Azərbaycan dilinin Şahbuz şivələri" və "Naxçıvan şivələrinin frazeologiyası" kitabları çap olunmuşdur. Bu günlərdə isə regionun dialekt və şivələrinin öyrənilməsi ilə bağlı aparılan araşdırmaların və dialektoloji ekspedisiyaların nəticəsi olaraq daha bir kitabın nəşri həyata keçirilib. Belə ki, institutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və Dilçilik şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nuray Əliyevanın həmmüəllifi olduqları "Naxçıvan dialekt və şivələrinin lüğəti" kitabı işıq üzü görüb.

Kitabın əvvəlində dialektik material toplanmış yaşayış məntəqələrinin siyahısı yer alıb, lüğət kitabının quruluşu və tərtib üsulu, istifadə edilmiş fonetik transkripsiya haqqında ətraflı məlumat verilib. Kitabın giriş hissəsində bölgənin coğrafi mövqeyi, təbiəti, demoqrafik və etnoqrafik xüsusiyyətləri şərh edilib. Nəşrdə Naxçıvanın ayrı-ayrı rayon və kəndlərində işlədilən üç mindən artıq dialekt söz toplanılıb, onların mənası dəqiqləşdirilib, işlənmə məqamları verilib. Burada toplanılan sözlər dilimizin tarixini, xalqımızın keçmişini, həyatını və məişətini özündə əks etdirir.

Bundan əlavə, kitabda bölgədə təsadüf edilən dialekt vahidləri Azərbaycan dilinin digər bölgələrdəki, Türk dünyası dialekt və şivələrdəki eyni leksik vahidlərlə struktur-semantik cəhətdən müqayisə olunur.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

***İtmişdir***

Seyidli Vəfa Mirnatiq qızının adına Naxçıvan Şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbi tərəfindən verilmiş 04274 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 469